**UOT: 791.43.**

**Ləman Həsənli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: lemanhesenli251296@gmail.com**

# TÜRKİYƏ KİNEMATOQRAFİYASINDA FOLKLOR MOTİVLƏRİ

**Xülasə**. Türk torpaqlarında yaşayan xalqların folkloru hər zaman incəsənətin bütün sahələrində, eləcə də, kinoda öz əksini tapmışdır. Bu baxımdan Türkiyə kinematoqrafiyasının yaranmasından etibarən folklor motivlərinin işlənmə prinsipləri bir sıra filmlərdə öz əksini tapmışdır. Zeki Ötken imzası daşıyan "Ağrı dağının qəzəbi" (1973) və Nuri Akınçı tərəfindən ekranlaşdırılmış "Fərhad və Şirin" (1966) filmləri təhlil olunaraq şifahi və yazılı xalq ədəbiyyatının, inancların və miflərin incəsənətdəki, xüsusilə, kinodakı yeri araşdırılmışdır.

**Açar sözlər**: folklor, dağ, alov, inanc, mifologiya, axirət.

İnsanlar özlərini ifadə etmək və ünsiyyət qurmaq üçün davamlı olaraq müxtəlif üsullar axtarmışlar. Bu axtarış nəticəsində ehtiyaclarını incəsənətin müxtəlif sahələrində sınaqdan keçirmişlər. Belə ki, bu, ilk əvvəl sadəcə mağara divarlarına həkk edilən ibtidai rəsmlər idisə, daha sonra rəssamlıq, musiqi, heykəltəraşlıq, teatr və ən yeni incəsənət sahəsi hesab edilən kinoda öz əksini tapdı. İncəsənətin ilk nümunələri xalqın inancları, adət-ənənələri, gündəlik həyat tərzini əks etdirən xüsusiyyətlərə malik olsa da, gün-gündən inkişaf edərək, daha da mürəkkəbləşərək müasir incəsənəti doğurmuşdur. İlk bədii filmlər belə, bir çox ölkələrdə olduğu kimi Türk kinosunda da mövzu olaraq folklora müraciət edilərək yarandı.

1914-cü ildə Fuad Uzkınay tərəfindən çəkilən "Ayastefanosda rus abidəsinin yıxılması" sənədli filmi Türk kinematoqrafiyasının ilk nümunəsi hesab olunur. Bundan sonra çəkilən bir çox filmlərdə daha çox teatrallıq xüsusiyyətləri nəzərə çarpsa da, artıq o vaxt məlum oldu ki, Türk torpaqlarında inandırıcı, baxımlı, real sənədli filmlər çəkilə bilər. Həmin gündən etibarən, Türk kinematoqrafiyası müxtəlif mərhələlərdən keçərək, öncə "İlkin dövr", daha sonra 1923-1939-cu illər "Teatrçılar dövrü", 1939-cu ildən başlayaraq "Kinematoqrafçılar dövrü" adlandırıldı. 1950-ci ildə isə Türkiyə kinematoqrafiyasının uzun illər tə-

sirindən çıxa bilməyəcəyi “Yeşilçam” dövrü başladı. Yılmaz Güneyin “Ümid” (1970) filmi ilə başlayan “Yeni Türk Kinosu” bir çox yeni rejissor və sənətçilərin diqqətini çəkdi ki, bunlardan biri də Yılmaz Güney ilə dəfələrlə ortaq filmlərə imza atan Zeki Ötken oldu. O, yaradıcılığının ilk illərində çəkdiyi “Bir buket bənövşə”, “Vurğun”, “Ağrı dağının qəzəbi” kimi filmlərində Yeşilçamın bilinən hekayə və mövzularına müraciət etmişdir (1). Bu baxımdan, “Ağrı dağının qəzəbi” filmi xüsusilə diqqətəlayiqdir. Çünki, bu filmdə folklor motivlərindən yetərincə istifadə edilmişdir.

“Ağrı dağının qəzəbi” filminin adından göründüyü kimi, bu ekran əsərinin müəllifləri qədim türklərin inancları, onların dağı Tanrı ilə eyniləşdirməsi, dağın ətəyində yaşayan kəndlilərin xeyir və şər əməllərinin dağ tərəfindən cavablandırmasına olan inamlarını ortaya qoyur. Digər tərəfdən, müəlliflər dağ motivinə dəfələrlə müraciət olunmasına baxmayaraq, hər zaman ortaq mövqedən çıxış edərək böyüklüyü, ucalığı, bütün əməllərə və hadisələrə şahidlik edərək lazımi zamanda lazımi cavabları verən xüsusiyyəti qoruyub saxlamışlar. “Fərhad və Şirin” filmində sevgi uğrunda dağları yaran Fərhadın sevgilisinə qovuşa bilməyəcəyini öyrəndikdən sonra öz canına qıyması, Şirinin sevgisi uğrunda özünü fəda etməsi, bu ayrılığa səbəb olan vəzirin elə həmin dağın ətəyində cəzalandırılması, dağın özündən uzaqlaşdıraraq aşağı yuvarlaması, bir növ Tanrı rolunda çıxış edən dağın ucalığı məsələsini ortaya qoyur. Buna bənzər örnəklərlə çox zəngin olan Türk kinematoqrafiyasının mifoloji motivləri sadəcə yuxarıda göstərdiklərimlə bitmir. Mən daha çox diqqəti Türk mifologiyasında çox önəmli yer tutan dağ motivlərinə yönəltmək istərdim. Türk xalqlarının folklorunda tez-tez rast gəldiyimiz dağ kultu, adətən, mifologiyada daş və kənd kultu ilə sintez formasında göstərilir. Boyların, soyların, qəbilələrin hər birinin müqəddəs dağlarının olması, soyun öz əcdadını dağ ruhu ilə birləşdirməsi, hər iki mifoloji kultu bir-birinə yaxınlaşdırır (2).

Dağın eyni zamanda qorunma, sığınma vasitəsi kimi qəbul olunması “Ağrı dağının qəzəbi” filmində yaralı Əli və sevgilisi Gülyarıkın onları öldürmək üçün təqib edən atlılardan xilas olmaq məqsədilə istifadə olunmuşdur. Yaxınlaşan atlıları uzaqlaşdırmaq üçün sanki müqəddəs dağ ilə ittifaq bağlayan Əli tütəyini əlinə alaraq çaldığı musiqi ilə dağ uçqununa səbəb olur və beləcə sevgililər onlara artıq çox yaxınlaşmış atlılardan uzaqlaşa bilirlər. Dağın qoruyucu rolda olması Azərbaycan dastanlarında da öz əksini tapmışdır. Məsələn,

“Koroğlu” dastanının Azərbaycan nümunəsində qəhrəmanın öz qoruyucusu olan dağda məskən salması, dağda olduğu müddətdə düşmənin hədəfində olmaması, bir növ düşməndən qorunması buna parlaq misal ola bilər.

Filmdə diqqət çəkən daha bir xüsusiyyət Əli və Gülyarıkın ilk dəfə bir-birlərini gördükləri və aşiq olduqları ərazidəki nəzir ağacıdır. Türklərin qurban və nəzirlərə olan inancları da ən azından dağa bəslədikləri inam və sevgi qədər qədimdir. Əlinin öz dəsmalını Gülyarıkın nəzir ağacına asdığı niyyət dəsmalına bağlaması bir gün Gülyarık ilə qovuşmağa dair inancına işarədir. Belə ki, filmdə sevgililərin qovuşması baş verməsə də, onların eyni gündə öz sevgiləri uğrunda həyatdan köçmələri nəzir ağacına olan inamı doğruldur.

Filmdəki toy səhnəsində xalq halayı, milli rəqslər və qurbanvermə mərasimləri nümayiş etdirilir. Evlənən cütlüklər mütləq nəzir ağacının qarşısından keçirlər, toy zamanı qalanmış tonqalın üzərindən tullanaraq günahlarının alovla birlikdə yanmasına inanırlar, belə ki, bütün bunlar folklor motivlərinin bir araya gətirilərək hazırlandığı filmdə dərin formada işlənməmişdir. Filmdə diqqət daha çox baş qəhrəmanlar üzərində cəmləndiyi üçün kənd əhalisi və onların yaşayış tərzi haqqında kifayət qədər məlumat verilməmişdir. Buna baxmayaraq, təsvir olunan Ağrı dağının möhtəşəm mənzərəsi, milli geyimli kənd camaatının şivə ilə danışması, öz adət-ənənələrinə sadiq qalması filmdə nümayiş olunan folklorun təsvir həllini gücləndirir.

Diqqəti çəkən daha bir folklor motivi müqəddəs alovdur. Belə ki, Türk-monqol cəmiyyətinin inanclarında müqəddəs hesab edilən alovda da bir ruh olduğuna inanılırdı. Alovun təmizləyici, şər ruhlardan və xəstəliklərdən qoruyucu bir vasitə olduğu qəbul edildiyi üçün ona qurbanlar verilirdi. Və buna görə, Türklər və qonşu millətlər alovu şamanın alter eqosu olaraq qəbul etmişlər. Rouks buna görə də əlində alov tutmağı bacaran və ya alov üzərində yeriyə bilən müsəlman övliyalarını da şaman kimi alovun əfəndisi olaraq qəbul edir. Adətən, alovun məhvetmə xüsusiyyətinə görə yer üzünə aid varlığının silinməsi üçün istənilən ölülərin cəsədləri və əşyaları yandırılırdı (3). Gülyarık sevgilisinə qovuşa bilmədiyi üçün buna səbəb olan şər ruhları məhv etmək məqsədilə mağaranın içindəki günahkarları özü ilə bərabər yandırır. Ancaq bu bəsit bir intihar deyildir. Namusu tapdalanmış Gülyarıkın ağlına toylardakı adət üzrə alovun üzərindən atılmaq və “Bütün günahlarımız alovla birgə kül olsun” fikri gəlir. Bu üsulla gəlinlər alov üzərindən atılaraq günahlarından təmizlənirdilər. Gülyarık da təmizlənmək

məqsədilə alov üzərindən tullanarkən "Yanına tərtəmiz gəlirəm" ifadəsini işlədir. Çünki, axirət dünyasına olan inancını dəfələrlə qeyd edən Gülyarık ruhlar dünyasında öz sevgilisinə qovuşacağına inanırdı. Axirətdə qovuşan ruhlara inanan digər bir qəhrəman isə "Fərhad və Şirin" filmindəki Şirin obrazıdır. Şirin dağın ətəyində sevgilisi Fərhadın qan içindəki cəsədini görüb özünə qəsd edərək bu dünyada nəsib olmayan qovuşmanın baş tutacağına inanır.

Türk mifologiyasında axirət anlayışı özünəməxsus yer tutur. Miflərin ortaya çıxmasında ən önəmli faktor – xüsusilə erkən əsrlərdən söhbət gedirsə – "din"dir. Bu gün mifologiyanın əhatə dairəsi isə xeyli genişlənmişdir. Dastanlar, nağıllar, romanlar və hətta bu günə qədər davam edən insan həyatının qeydləri və indiki həyatımız da mifologiyanın mövzusudur; çünki onların hamısında miflərin əksi və ya metamorfozaları vardır (4).

Cozef Kempbelin "Qəhrəmanın sonsuz səyahəti" kitabında qeyd etdiyi kimi, bütün miflər eyni və ya oxşar struktura malik olub, köklərini eyni mənbələrdən alırlar. Türk mifologiyası xalq ədəbiyyatında, daha sonra isə kinoda öz təzahürünü müxtəlif formalarda tapmışdır (5).

Türk mifologiyası Orta və Mərkəzi Asiyada paleolit dövründən etibarən inkişaf edərək çöl mədəniyyətində yenidən formalaşan və proto-türklər tərəfindən fərqli bir hala gətirilərək yenidən ortaya çıxan məzmuna sahibdir. Buna görə də, türklərdən öncəki dövrlərin mifoloji xarakterli arxeologiya və sənət tarixinin Türk mifologiyası üçün önəmi böyükdür.

"Ağrı dağının qəzəbi" və "Fərhad və Şirin" filmlərindəki mijoloji motivlərdən aydın olduğu kimi, türk xalqı öz folklor ənənələrini ən yeni incəsənət sahəsi hesab edilən kinoda kifayət qədər tərənnüm edə bilmişdir. Nəsillər boyunca qorunub saxlanılmış və hazırkı dövrə qədər ötürülmüş mədəniyyət nümunələri müasir incəsənət ilə sintezləşmişdir. Beləliklə, ilk vaxtlarda tonqal başına yığışaraq paylaşılan hekayələr indi kinoteatrlarda bəyaz pərdəyə ötürülərək təkrar izləyici və dinləyicilərini bir araya gətirməkdədir.

**Ədəbiyyat siyahısı:**

1. Giovanni Scognamillo – Türk Sinema Tarihi (1896-1997)
2. Fuzuli Bayat – Türk Mitolojisinde Dağ Kültü
3. J.P.Roux – Ateş Türklerde, Moğollarda Ateş Kültü (tərcümə: Gönül Yılmaz)
4. Prof. Dr Yaşar Çoruhlu – Türk Mitolojisinin Ana Hatları
5. Joseph Kempbell – Qəhrəmanın sonsuz səyahəti

**Леман Гасанлы**

## ФОЛЬКЛОРНЫЕ МОТИВЫ В ТУРЕЦКОМ КИНО

**Резюме**. Фольклорные мотивы народов проживающие на тюркских землях, всегда находили отражение во всех сферах искусства, а также в кино. С этой точки зрения, с момента создания турецкого кинематографа принципы развития фольклорных элементов рассматривались в фильмах. Место устной и письменной народной литературы, верований и мифов в искусстве, особенно в кино, было проанализировано путем анализа фильмов Нури Акинчи «Гнев горы бо» (1973) и «Фархад и Ширин» (1966).

**Ключевые слова**: фольклор, турецкое кино, гора, пламя, вера, мифология, загробная жизнь.

**Laman Hasanli**

## FOLKLORE MOTİVES İN TURKİSH CİNEMA

**Summary**: The folklore of the peoples living in the Turkic lands has always been reflected in all fields of art, as well as in cinema. From this point of view, since the establishment of Turkish cinema, the principles of the development of folklore elements have been addressed in films. The place of oral and written folk literature, beliefs and myths in art, especially cinema, was analyzed by analyzing the films "Wrath of Mount Agri" (1973) and "Farhad and Shirin" (1966) screened by Nuri Akinci.

**Key words**: folklore, mountain, fire, belief, mythology, afterlife

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**professor Əli Əmirli**